MƏDƏNİYYƏT DÜNYASI
Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universiteti XLVII buraxılış, Bakı, 2025
МИР КУЛЬТУРЫ
Азербайджанский государственный университет культуры и искусств, XLVII выпуск, Баку, 2025
THE WORLD OF CULTURE
Azerbaijan State University of Culture and Arts, XLVII edition, Baku, 2025

## SƏNƏTŞÜNASLIQ

**UOT 72**
**ORCID: 0009-0009-2074-58-71**
**https://doi.org/10.52094/2221-7584.2025.47.04**

**Məhəmməd Bayramov Asəf oğlu**
**Naxçıvan Dövlət Universiteti**
**müəllim**
**mehemmedbayramli996@gmail.com**

# NAXÇIVANIN ORTA ƏSR ZİYARƏTGAHLARININ TİPOLOJİ XÜSUSİYYƏTLƏRİ (XI-XIX ƏSRLƏR)

**Xülasə:** Naxçıvanın Orta əsr memarlıq abidələrinin müəyyən qrupunu ziyarətgahlar təşkil edir. Araşdırmamız onu deməyə imkan verir ki, müxtəlif növ orta əsr ziyarətgahları Orta əsrlər Azərbaycan memarlığının tərkib hissəsidir. Tədqiqatlar göstərir ki, XI-XV əsrlərə aid ziyarətgahların özünəməxsus xüsusiyyətlərinin, XVI-XIII əsrlərə aid ziyarətgahlardakı xarakterik plan-həcm strukturlarının izlənməsi Azərbaycan memarlığında mövcud olan memarlıq ənənələrinin davamı kimi qiymətləndirilməlidir. Azərbaycanın digər bölgələrində, eləcə də Cənubi Azərbaycanda və Anadoluda Naxçıvanın Orta əsr ziyarətgahlarında istifadə edilən plan-həcm quruluşu və memarlıq elementlərinin izlənməsi bu abidələrin türk-islam mədəniyyətinin tərkib hissəsi olduğunu, xalqımızın qədim inanc və dünyagörüşünü əks etdirdiyini təsdiqləyir.

**Açar sözlər:** Naxçıvan, Orta əsrlər, türk-islam mədəniyyəti, memarlıq, tipoloji qrup.

**Giriş.** Naxçıvanın Orta əsr memarlıq abidələrindən bir qrupu da ziyarətgahlardır. Bu bölgənin Orta əsr ziyarətgahları haqqında ədəbiyyatda müəyyən məlumatlar verilsə də memarlıq abidələrinin bu qrupu kompleks şəkildə tədqiqata cəlb edilməmiş və onların memarlıq xüsusiyyətləri yetərincə təhlil edilməmişdir. Apardığımız araşdırmalar müxtəlif tipli Orta əsr ziyarətgahlarının memarlıq baxımından diqqətəlayiq sənət əsərləri olduğunu və

onların Orta əsr Azərbaycan memarlığının tərkib hissəsi olduğunu deməyə imkan verir.

**XI-XV əsrin ziyarətgahları.** Ziyarətgahları plan-həcm quruluşunun həllinə görə bir neçə qrupa bölmək olar. Birinci qrupa daxil olan ziyarətgahlar öz formasına və memarlıq quruluşu baxımından Naxçıvanın Orta əsr türbələrini xatırladır. Onlar yeraltı və yerüstü hissələrdən ibarətdir. Lakin bu ziyarətgahlar həm yeraltı, həm də yerüstü hissələrinin həllinə görə bir-birindən fərqlənirlər.

Birinci tipə sərdabəli ziyarətgahları aid etmək olar. Nuh türbəsi adlı ziyarətgahı bu tipə aid etmək olar. Bu türbənin yalnızca səkkizüzlü prizma şəklində olan sərdabəsinin özülü və yerüstü memarlıq bəzəklərinin bir qismi indiyədək qalmışdır. Türbənin qalıqları arxeoloji qazıntılar nəticəsində üzə çıxarılmışdır. Aşkar olan arxeoloji nümunələrə uyğun olaraq türbə XII əsr Naxçıvan türbələrinin memarlıq kompozisiyasına uyğun olaraq bərpa edilmişdir. Türbə içəridən yuvarlaq günbəzşəkilli, xaricdən isə çadırşəkilli örtüklə tamamlanmışdır. Digər türbələrdən fərqli olaraq Nuh türbəsinin sərdabəsi önünə düzbucaqlı, üstüaçıq bir tikinti əlavə edilmişdir. Tədqiqatçılar belə hesab edir ki, türbələrin önündə bu tip tikintilərin inşa edilməsi XIII əsrin sonraında ortaya çıxsa da daha çox XIV əsrdə inkişaf etmişdir (Bates, Ülkü Ü,.2014, s. 146).

Bu tipə həmçinin Şərur rayonunun Tənənən kəndində yerləşən Piri Süleyman abidəsini aid etmək olar. Qeyd etmək istəyirik ki, pirin sərdabə hissəsi xeyli aşınmaya məruz qalmış və dəyişmişdir. Sərdabə hissəsində az da olsa qalan memarlıq elementləri sərdabənin çoxüzlü olduğunu və kərpicdən inşa edilmiş stalaktitli memarlıq elementləri ilə tamamlandığını deməyə imkan verir.

Pirin yerüstü hissəsi kvadratşəkillidir. Kvadrat əsasdan yarımdairəvi günbəzə keçid tromplarla-bir-birini əvəz edən tağşəkili və rombşəkilli kərpic konstruksiyalarla həll edilmişdir. Türbələrin iç quruluşunda bir hissədən digərinə keçidin bu tip konstruksiyalarla həllinə bir çox abidələrdə rast gəlmək olur. Kvadratşəkili əsasdan günbəzə keçidin bu şəkildə həll edilməsinə biz Xanəgah kompleksindəki türbədə, Əmirxan, Yaralı Sultan və Kırna türbələrində görmək mümkündür.

Bu tipə aid edə biləcəyimiz Qarabağlar pir kompleksindəki türbə səkkiz üzlü formadadır və onun digər türbələrdən fərqli olaraq sərdabəsi bir qədər yerə

dərinləşdirilmiş şəkildə olsa da sərdabə türbə vahid memarlıq kompleksindən ibarətdir. Bu binanın daxilində və xarici səthində heç bir memarlıq bəzəyi yoxdur.

İkinci tipə Əmirxan türbəsini və Yaralı Sultan ocağını aid etmək olar. Yazılı mənbələrin verdiyi məlumatlardan aydın olur ki, bu ziyarətgah Əlincəqalanın qala rəisi Əmir Seyyid Əhməd Oğulşaminin nəvəsi Əmirxan üçün inşa edilmişdir. Xalq arasında "Təkyə" adlanan bu binada sonralar müəyyən mərasimlər də keçirilmişdir. Hər iki memarlıq abidəsi hazırda müqəddəs ziyarətgah hesab olunur. Bu abidələrin hər ikisi kvadratşəkilli olub yarımdairəvi günbəzlə örtülmüşdür. Memarlıq abidələrinin kvadratşəkilli gövdəsi daşdan, memarlıq konstruksiyaları və günbəzi bişmiş kərpicdən inşa olunmuşdur. Kvadrat əsasdan günbəzə keçid tromplarla-tağşəkilli və rombşəkilli formada inşa edilmiş kərpic konstruksiyalarla həll edilmişdir.




1 2 3

**Şəkil 1.** *Yaralı Sultan ocağı: 1 – xarici görünüşü; 2 – iç görünüşü; 3 – planı.*

Yaralı Sultan ocağı cənub divarda yerləşən mehrabın və günbəzlərdə yerləşən tağşəkilli pəncərələrin olması ilə fərqlənir (Şəkil 1). Bu baxımdan Yaralı Sultan ziyarətgahının günbəzi Naxçıvan şəhər Cümə məscidinin günbəzi ilə bənzərlik təşkil edir. Əmirxan türbəsi və Yaralı Sultan ocağının bənzər memarlıq elementləri onların eyni dövrdə inşa edildiyini deməyə əsas verir. Mehrabın olması Yaralı Sultan ocağının din xadimləri tərəfindən ibadət yeri kimi də istifadə olunduğunu göstərir. Təsadüfi deyil ki, Əmirxan türbəsi də bu funksiyaya malik olmuşdur. Odur ki, bu tip tikililər həm ziyarətgah, həm də ibadət yeri olmuşdur. Ümumiyyətlə, kvadratşəkilli günbəzli tikililərə həm Azərbaycan

(Бретанцкий, Л.С,. 1966, s. 266), həm də Anadolu (Ayda, A., 1970, s. 82-104) abidələrində rast gəlmək mümkündür.

Üçüncü tipə Xanəgah memarlıq kompleksinin türbəsini aid etmək olar. Bu türbə də  Əmirxan türbəsi, Yaralı Sultan və Kırna ziyarətgahı kimi kvadrat əsas üzərində qurulmuşdur. Lakin onlardan fərqli olaraq kvadrat əsasdan səkkizüzlüyə, səkkizüzlüdən isə günbəsin dairəvi əsasına keçid yaradılmışdır. Kvadrat əsasdan səkkizüzlüyə keçid üçbucaqşəkilli müstəvilərlə, səkkizüzlünün künclərindən günbəzin dairəvi əsasına keçid tromplarla-tağşəkilli və rombvari kərpic konstruksiyalarla həll olunmuşdur. Gövdədən günbəzə keçidin bu xüsusiyyətinə görə yuxarıda adlarını çəkdiyimiz ziyarətgahlar demək olar ki, bir-biri ilə bənzərdir. Lakin onların plan-fəza konstruksiyasının xüsusiyyətləri yerli memarların bacarığından, ehtimal ki, həm də onların dini-ideoloji görüşlərindən qaynaqlanmışdır.

Dördüncü tip ziyarətgahlara dünyanın dörd cəhətinə doğru yönələn xaçşəkilli quruluşa malik ziyarətgahları aid edə bilərik. Bu tipə Maliki İbrahim piri aiddir (Şəkil 2). Bu pirin dörd cəhətə yönəlmiş tağçaları və onların arası çatmatağlarla tamamlanmış və yarımdairəvi günbəzə keçid verilmişdir. Azərbaycanda, o cümlədən Naxçıvanda bu tip plan quruluşu olan ziyarətgalar azdır. Lakin qeyd etmək lazımdır ki, bu tip memarlıq quruluçuna bu ziyarətgahla həmdövr olan Qarabağlar türbəsinin sərdabəsində rast gəlmək mümkündür. Daha sonra bu memarlıq elementlərini Nehrəm İmamzadəsi və Parçı İmamzadəsində görürük. Bu isə pirin memarlıq quruluşunun təsadüfən ortaya çıxmadığını, onun Naxçıvan memarlıq məktəbinin inkişaf xüsusiyyətləri ilə bağlı olduğunu göstərir. Araşdırmalar göstərir ki, bu tip plan-məkan quruluşu Azərbaycanın digər abidələrində də mövcud olmuşdur (Саламзаде, А. В., 1964, s. 29-30; Щеблыкин, И.П., 1943 s. 34; 4, s. 266-267, şəkil 175). Deyə bilərik ki, sərdabə, yaxud ziyarətgahların bu tipdə planlaşdırılması Azərbaycanın Orta əsr memarlıq ənənələri ilə bağlı olmuşdur.

Beşinci tip ziyarətgahlar kvadratşəkilli əsas üzərindədir Bu ziyarətgahların gövdəsi dünyanın dörd səmtinə yönəlmiş dörd tağşəkilli açırım şəklində həll edilmiş, tağşəkilli açırımlar tağbəndlə birləşədirilərək yarımdairəvi günbəzə keçid yaradılmışdır. Plan-həcm quruluşunun həllinə görə bu ziyarətgah

Kırna ziyarətgahı ilə bənzər olsada, onların fasadının həllində xeyli fərq vardır. Belə ziyarətgahların birinin qalıqları Maliki İbrahim qəbristanlığında qalmaqdadır.

Altıncı tip ziyarətgahlar düzbucaq formalı və yastı damlıdırlar. Bu tipə Aza piri, Qırxkimsənə piri və Xanağa piri aiddir. Lakin onların bəzisi daxili quruluşuna görə digərlərindən fərqlidir. Bu Qırxkimsənə ziyarətgahının daxili quruluşunda özünü göstərir. Onun fərqli cəhətlərindən biri qapı girişinin yanında kvadrat formalı sütunun olmasıdır. Sütunun əks tərəfində pirin cənub divarında tağşəkilli tağça şəklində mehrabı da var. Yuxarıda qeyd etdiyimiz kimi, Yaralı Sultan pirində də mehraba rast gəlinir. Bu isə pirlərin həcmcə kiçik olmasına baxmayaraq, onlardan ibadət məqsədi ilə istifadə olunduğunu göstərir.

Düzbucaqlı pirlərin əksəriyyətinin içərisi sadədir və heç bir memarlıq elementi yoxdur. Ordubad rayonunun Xanağa kəndində olan pir ikiotaqlı olması olması ilə Aza və Qırxkimsənə pirlərindən fərqlənir.

Yeddinci tip pirlərin sırasında Qarabağlar kəndindəki pir aiddir. Qeyd edildiyi kimi, bu pirə daxil olan binaların tavanı qovsşəkilli günbəzlə tamamlanmışdır. Bu pirə daxil olan dördkünc formalı binaların girişi də bir-birindən fərqlənir. Onların biri ensiz olduğu halda digəri isə geniş və tağçəkilli olması ilə seçilir. Ehtimal ki, bu binaların fərqli zamanlarda tikilməsi ilə bağlı olmuşdur.



1




2

**Şəkil 2.** *Maliki ibrahim piri: 1. İç görünüşü; 2. Planı.*

Pir Eyvaz xanəgahından indiyədək yalnız bir fotoşəkil qalmışdır. Lakin tədqiqatçılar bu binanın son vaxtlaradək qaldığını göstərir. Rəsmlərə əsasən bu xanəgahın tağşəkilli qapı girişi olan dördkünc formalı binadan ibarət olduğunu deməyə imkan verir.

XI-XV əsrlərin ziyarətgahları bir-birindən plan-məkan quruluşunun müxtəlifliyi ilə fərqlənirlər. Bu dövrə aid ziyarətgahların bir qismi yarımşarşəkilli günbəzlərinin olması ilə xarakterizə olunurlar. Şərqi Anadoluda bu tip günbəzli tikintilərin inkişafını tədqiqatçılar başlıca olaraq Osmanlı dövrü üçün xarakterik hesab edirlər. Lakin bu tip tikintilər Osmanlılardan da əvvəl mövcud olmuşdur. Onların fikrinə görə, bu dövrdə bu tip tikintilər inkişaf edərək yeni xüsusiyyətlər almışdır. Xüsusilə günbəzlərin yüksək silindir üzərinə yerləşdirilməsinin məhz bu dövrdən yarandığı düşünülür (Bates, Ülkü Ü., 2014, s. 146).

**XVI-XIX əsrin ziyarətgahları.** Bu dövrün ziyarətgahları daha sadə memarlıq üslubuna malikdir. Əvvəlki dövr üçün xarakterik olan günbəzli tikintilər bu dövrdə çox az qalmışdır. Lakin buna baxmayaraq əvvəlki dövrün memarlıq elementlərini bu dövrdə də izləmək mümkündür. Bu dövrün ziyarətgahları memarlıq üslubu baxımından bir-birindən fərqlənirlər. Bu dövrün birinci tip ziyarətgahları planda xaçşəkilli olması ilə fərqlənir. Bu tipə Nehrəm İmamzadəsi aid edilə bilər (Şəkil 3). Ziyarətgahın mərkəzi hissəsi dünyanın dörd səmtinə yönəlmiş dərin tağçalar şəkildə inşa edilmiş, düzbucaqlı tağçalar və onların arası tağbəndlərlə tamamlanaraq günbəzin silindrik əsasına keçid yaradılmışdır. Nehrəm İmamzadəsi plan-həcm quruluşuna görə XIV əsrə aid Maliki İbrahim ziyarətgahını və Qarabağlar türbəsinin sərdabəsini xatırladır. Qeyd edək ki, bu tip sərdabələr vaxtilə Culfa rayonunun Saltaq kəndində və Xaraba Gilanda qeydə alınmışdır. İmamzadənin cənub divarında mehrab, digər divarlarında isə dərin tağşəkilli taxçalar vardır. Bu memarlıq elementlərini biz Yaralı Sultan ziyarətgahının daxili quruluşunda görürük. Günbəzdə tağşəkilli pəncərələrin yerləşdirilməsi də Yaralı Sultan ziyarətgahı ilə bənzərdir. Bununla belə, Nehrəm İmamzadəsi daxili bəzəklərinin zənginliyinə görə olduqca fərqli və təkrarolunmazdır. Lakin qeyd etmək lazımdır ki, Nehrəm İmamzadəsi xarici görünüşünün həllinə görə müəyyən qədər Naxçıvan şəhərindəki İmamzadə ilə

bənzərdir. Birinci tip ziyarətgahlar sırasına Parçı İmamzadəsini də aid etmək olar. Lakin Parçı İmamzadəsi xaçşəkilli plan-həcm quruluşuna malik olsa da bu abidə öz memarlıq həllinə görə Nehrəm İmamzadəsindən xeyli fərqlənir. Bu ziyarətgahın da cənub divarında mehrabı vardır. Lakin onun mehrabı Yaralı Sultan və Nehrəm İmamzadəsinin mehrabından daha sadə olması ilə fərqlənir. Parçı İmamzadəsi iç divarda yerləşdirilən tağşəkilli tağçaları ilə də Nehrəm İmamzadəsinə bənzərdir. Lakin Parçı İmamzadəsində cənub və şimal qanadları, çərq və qərb qanadlarından daha uzun olması ilə seçilir (Şəkil 4). Buna görə də içəridə yerləşdirilən taxçaların sayı daha çoxdur. İmamzadənin şərq və qərb qanadlarında yerləşdirilən ensiz uzunsov və çoxbucaqlı tağçalar onun iç görünüşünə xüsusi görkəm verir. Parçı İmamzadəsi günbəzin həllinə görə əvvəlki dövrə aid Yaralı Sultan, Əmirxan türbəsi ilə bənzərdir. Həmin ziyarətgahlarda olduğu kimi Parçı İmamzadəsində də günbəzə keçid üçün kərpic konstruksiyalardan istifadə olunmuş və günbəzə keçid silindrik gövdə ilə deyil birbaşa həll olunmuşdur.

İkinci tip ziyarətgahlar sırasına Naxçıvan İmamzadəsi aid edilə bilər. Bu ziyarətgah digərlərindən bir-birinə birləşik üç otaq şəklində inşa edilməsi ilə fərqlənir. Ziyarətgahın əsasını dördkünc əsas üzərində inşa edilmiş türbə təşkil edir. Türbənin dördbucaqlıdan səkkizüzlüyə və silindirə keçid verən gövdəsinə Naxçıvanın digər memarlıq abidələrində rast gəlmirik. Lakin silindirik gövdədən günbəzə keçid müəyyən qədər Nehrəm İmamzadəsində izlənir. Ziyarətgahın iç quruluşunda istifadə olunan stalaktitlər, həmçinin ziyarətgaha daxil olan düzbucaqlı otaqlardan birinin günbəzinə pəncərələrin yerləşdirilməsi həm əvvəlki dövrün abidələri, həm də Nehrəm İmamzadəsi ilə bənzərlik təşkil edir.

Üçüncü tip ziyarətgahlar düzbucaqlı plan quruluşuna malik olan ziyarətgahlardır. Bu ziyarətgahların tavanı düzdür. Tiri piri, Pirməqsud piri, Baba Yaqub piri, Ərəfsə piri bu tip ziyarətgahlara nümunə ola bilər. Bu pirlərin bəzisi Baba Yaqub və Pirməqsud piri kimi tək otaqlı, bəzisi Ərəfsə pirində olduğu kimi iki otaqlıdır. Babək rayonunun Göynük kəndində yerləşən pir isə bir-birinin yaxınlığında müstəqil inşa edilmiş otaqlardan ibarətdir.

Bu pirlər arasında ən qədimi Tiri piridir. Bu pirdəki qəbirin üzərində Azərbaycan dilində kitabə vardır (Səfərli H.F., 2021, s. 203). Lakin digər

pirlərdə, o cümlədən Ərəfsə pirində qəbir daşları üzərində kitabə yoxdur. Kitabələrin olmaması onların tarixini dəqiqləşdirməyə imkan vermir.



1



2




3

**Şəkil 3.** *Nehrəm İmamzadəsi: 1 – xarici görünüşü; 2 – içərisinin görünüşü; 3 – planı.*

Qarabağlar kəndindəki dördkünc formalı pir tavanının sferik tağbəndlə örtülməsi ilə fərqlənir. Bu pir dam örtüyünün həll edilməsinə görə burada olan əvvəlki tikintilərlə bənzərdir. Ziyarətgahlar arasında türbə-ziyarətgahlar diqqəti cəlb edir. Bu tip ziyarətgahlar orada müqəddəs şəxslərin dəfn edilməsinə görə türbə adlansada onların plan-həcm quruluşunun həlli türbələrlə deyil məscidlərlə bənzərdir. Biz bu xüsusiyyəti Kırna məscidi, Əmirxan türbəsi və Yaralı Sultan

ziyarətgahında aydın şəkildə görə bilirik. Ehtimal ki, bu tip memarlıq abidələrinnin quruluşu onlardan həm də ibadətgah kimi istifadə olunması ilə bağlı olmuşdur. Təsadüfi deyil ki, Yaralı Sultan ziyarətgahında və Nehrəm İmamzadəsində biz mehrabların olmasına rast gəlirik. Lakin bu tip abidələrin bəzisində, o cümlədən Əmirxan türbəsində və Kırna məscidində mehrablar qeydə alınmamışdır. Bununla belə, bu abidələrdə müəyyən dini mərasimlərin keçirilməsi xalq arasında yayılan məlumatlardan məlumdur.




**Şəkil 4.** *Parçı İmamzadəsi: 1. Xarici görünüşü; 2. İç görünüşü; 3. Mərkəzi zalın planı.*

Araşdırmalar göstərir ki, pirlərin əksəriyyəti İslam müqəddəslərinin məzarı üzərində inşa edilmiş xatirə abidələrindən ibarət olmuşdur. Onların bir qismi təmir-bərpa işləri zamanı zamanla müəyyən dəyişikliyə uğrasa da arxaik

memarlıq üslublarını qoruyub saxlamışdır. Bəzi ziyarətgahlar Azərbaycan xalqının qədim inancları ilə bağlı olmuşdur. Ərəfsə pirinin yaxınlığında indi də insanlar tərəfindən ziyarət edilən və sitayiş obyekti olan dağdağan ağacı vardır. İslam dininin qəbulundan sonra müqəddəslərin burada dəfn edilməsi ilə ziyarətgaha sitayiş daha da artmışdır.

**Nəticə.** Araşdırmalar göstərir ki, XI-XV ziyarətgaları özünəməxsus xüsusiyyətlərinin, onlar üçün xarakterik olan plan-həcm quruluşunun XVI-XIII əsrin ziyarətgahlarında izlənilməsi Azərbaycan memarlığında mövcud olan memarlıq ənənələrinin davamı kimi düşünülməlidir. Naxçıvanın Orta əsr ziyarətgahlarında istifadə olunan plan-həcim quruluşu və memarlıq elementlərinin Azərbaycanın digər bölgələrində, həmçinin Cənubi Azərbaycan və Anadoluda izlənməsi bu abidələrin Türk-İslam mədəniyyətinin tərkib hissəsi olduğunu və xalqımızın qədim inanclarını və dünyagörüşünü özündə əks etdirdiyini təsdiq edir.

## Ədəbiyyat siyahısı:

1. Səfərli H.F. (2021). Ordubad bölgəsinin epiqrafik abidələri. Naxçıvan: Əcəmi.
2. Ayda, A. (1970). Batı Anadolu'dan Birkaç Yapının Tarihlendirilmesi ve XV. Yüzyılın Osmanlı Mimarisi Hakkında // – Uludağ: Anadolu Sanatı Araştırmaları. 2, – s. 82-104.
3. Bates, Ülkü Ü. (2014). Moğol İstilasının Türk Mimarisine Etkisi // – Uludağ: Uludağ Üniversitesi İlahiyat Fakültesi Dergisi. S. 23, – s. 141-154.
4. Бретанцкий, Л.С. (1966). Зодчества Азербайджана XII-XV вв., и его место в архитектуре Переднего Востока. Москва: Наука.
5. Саламзаде, А. В. (1964). Архитектура Азербайджана XVI-XIX вв. Баку: Издательство АН Азербайджана, 256 с.
6. Щеблыкин, И.П. (1943). Памятники Азербайджана зодчества Низами. Баку: Издательство АзФАН, 96 с.

**Mahammad Bayramov**

## Typological Characteristics Of Medieval Sanctuaries Of Nakhchivan (XI-XIX Centuries)

**Summary:** One of the groups of medieval architectural monuments of Nakhchivan is sanctuaries. Our research allows us to say that different types of medieval sanctuaries are an integral part of medieval Azerbaijani architecture. The researches show that tracing the unique characteristics of the 11th-15th centuries, the plan-volume structure characteristic of them, in the 16th-13th century, should be considered as a continuation of the architectural traditions existing in Azerbaijani architecture. The tracing of the plan-volume structure and architectural elements used in the medieval sanctuaries of Nakhchivan in other regions of Azerbaijan, as well as in South Azerbaijan and Anatolia, confirms that these monuments are a part of Turkish-Islamic culture and reflect the ancient beliefs and worldview of our people.

**Key words:** Nakhchivan, Middle Ages, Turkish-Islamic culture, architecture, typological group.

**Махаммад Байрамов**

## Типологические особенности средневековых святилищ нахичевани (XI-XIX вв.)

**Резюме:** Определенная группа средневековых архитектурных памятников Нахичевани являются святилищами. Наши исследования позволяют сказать, что различные типы средневековых мест паломничества являются неотъемлемой частью средневековой азербайджанской архитектуры. Исследования показывают, что прослеживание уникальных особенностей святилищ 11-15 веков, характерных для них планово-объемных структур в святилищах 16-13 веков следует рассматривать как продолжение существующих в азербайджанском зодчестве архитектурных традиций. Прослеживание планово-объемной структуры и архитектурных элементов, использованных в средневековых святилищах Нахичевани в других регионах Азербайджана, а

также в Южном Азербайджане и Анатолии, подтверждает, что эти памятники являются частью тюрко-исламской культуры и отражают древние верования и мировоззрение нашего народа.

***Ключевые слова:*** Нахичевань, средневековье, тюрко-исламская культура, архитектура, типологическая группа.

***Məqalələrin redaksiyaya daxilolma tarixi: 02.05.2025***
***Məqalənin çapa qəbul olunma tarixi: 12.05.2025***